# Qeyri-texniki xülasə

“Sapar” layihəsi – Müştərək mikromobillik xidmətləri

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI

25064201

steer

# Mündəricat

1. GİRİŞ ........ 1
1.1. Ümumi məlumat ........ 1
1.2. Ətraf Mühit və Sosial Qiymətləndirmənin məqsədi ........ 2
1.3. AYİB üzrə kateqoriyalaşdırma ........ 2
2. LAYİHƏNİN TƏSVİRİ ........ 3
2.1. Layihənin icmalı ........ 3
2.2. Əməliyyat fəaliyyəti ........ 3
2.3. Əməliyyat infrastrukturu ........ 3
2.4. Rəqəmsal platforma və operativ idarəetmə sistemləri ........ 4
2.5. Coğrafi fəaliyyət sahəsi və genişlənmə ........ 4
2.6. Layihənin dayanıqlılıq məqsədləri ........ 4
3. SİYASƏT, HÜQUQİ VƏ İNSTİTUSİONAL ÇƏRÇİVƏ ........ 5
3.1. İcmal ........ 5
3.2. Tətbiq olunan AYİB tələbləri ........ 5
3.3. Milli normativ-hüquqi çərçivə ........ 5
3.4. Şəhər səviyyəsində əməliyyat və mobilliyə nəzarət tədbirləri ........ 6
3.5. Beynəlxalq standartlar və qabaqcıl beynəlxalq sənaye təcrübəsi ........ 6
3.6. ESA / ƏMSQ-nin nəticələri ........ 6
4. ƏTRAF MÜHİT VƏ SOSİAL ŞƏRAİTİN İLKİN VƏZİYYƏTİ ........ 7
4.1. Mövcud fəaliyyətə ümumi baxış ........ 7
4.2. Ətraf mühitin ilkin vəziyyəti ........ 7
4.3. Əmək münasibətləri və sosial sahə üzrə ilkin vəziyyət ........ 8
4.4. Əməyin mühafizəsi və təhlükəsizlik üzrə ilkin vəziyyət ........ 9
4.5. İctimai sağlamlıq və təhlükəsizlik üzrə ilkin vəziyyət ........ 10
5. ƏSAS ƏTRAF MÜHİT VƏ SOSİAL MƏSƏLƏLƏRİN VƏ TƏSİRAZALTMA TƏDBİRLƏRİNİN XÜLASƏSİ ........ 11
5.1. AYİB ESR 1 / ƏMST 1 – Ətraf Mühit və Sosial Risk və Təsirlərin Qiymətləndirilməsi və İdarə Edilməsi ........ 11
5.2. AYİB ESR 2 / ƏMST 2 - Əmək münasibətləri və iş şəraiti ........ 12

5.3. AYİB ESR 3 / ƏMST 3 - Resurslardan rasional istifadə, çirklənmənin qarşısının alınması və nəzarət; ........ 13

5.4. AYİB ESR 4 / ƏMST 4 – Sağlamlıq və əməyin təhlükəsizliyi ........ 13

5.5. AYİB ESR 10 / ƏMST 10 – Məlumatların açıqlanması və maraqlı tərəflərlə qarşılıqlı əlaqə 15

6. ƏTRAF MÜHİT VƏ SOSİAL FƏALİYYƏT PLANI (ƏMSFP/ESAP) ........ 15

6.1. ESR 1 / ƏMST 1 – Ətraf mühit və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi ........ 15

6.2. ESR 2 / ƏMST 2 - Əmək münasibətləri və iş şəraiti ........ 16

6.3. ESR 3 /ƏMST 3 - Resurslardan rasional istifadə, çirklənmənin qarşısının alınması və nəzarət; ........ 16

6.4. ESR 4 / ƏMST 4 – Sağlamlıq və əməyin təhlükəsizliyi ........ 16

6.5. ESR 10 / ƏMST 10 – Məlumatların açıqlanması və maraqlı tərəflərlə qarşılıqlı əlaqə 16

6.6. İcra və monitorinq ........ 17

7. ƏTRAF MÜHİT VƏ SOSİAL SAHƏDƏ MÜSBƏT FAYDALAR ........ 17

8. MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ VƏ KOMMUNİKASİYA ........ 18

9. NƏTİCƏ ........ 19

# 1. GİRİŞ

## 1.1. Ümumi məlumat

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Qazaxıstan, Azərbaycan, Özbəkistan və Gürcüstan da daxil olmaqla, bir sıra ölkələrdə "Jet" şirkəti tərəfindən göstərilən müştərək mikromobillik xidmətlərinin genişləndirilməsi və istismarını nəzərdə tutan "Sapar" layihəsinə (bundan sonra "Layihə") maliyyə dəstəyi imkanını nəzərdən keçirir.

"Jet" şirkəti mobil tətbiqlər, nəqliyyat vasitələri parkının idarə olunması sistemləri, servis mərkəzləri, akkumulyatorların doldurulması və saxlanması infrastrukturu, logistika əməliyyatları və müştərilərə dəstək sistemləri ilə təmin olunan rəqəmsal əməliyyat platforması vasitəsilə şəhər mühitində müştərək elektrik mikromobillik xidmətləri göstərir. Şirkətin əməliyyat modeli aşağı emissiyalı nəqliyyat alternativləri vasitəsilə şəhər nəqliyyatında marşrutun ilk və son hissəsini ehtiva edən mobilliyi dəstəkləyir və nəqliyyat vasitələri parkının monitorinqi, istifadəçilərin idarə edilməsi və əməliyyatların planlaşdırılması üçün nəqliyyat vasitələri parkının rəqəmsal idarə edilməsi, telematika, geozonaların təyin edilməsi və operativ məlumat sistemlərini özündə birləşdirir.

Şirkətin fəaliyyəti müəyyən əməliyyat zonalarında elektrikli skuter və elektrikli velosipedlərin yerləşdirilməsini, eləcə də enerji yığmasını, texniki xidmətini, təmirini və yenidən yerləşdirilməsini əhatə edir.

Layihə irimiqyaslı sənaye obyektlərinin yaradılmasını, istehsal fəaliyyətini və ya yeni ərazilərdə infrastrukturun qurulmasını nəzərdə tutmur. Əməliyyat fəaliyyəti əsasən servis mərkəzləri və anbarlar da daxil olmaqla, şəhər ərazilərində mövcud kommersiya və ya sənaye obyektlərində həyata keçirilir.



## 1.2. Ətraf Mühit və Sosial Qiymətləndirmənin məqsədi

Layihə üzrə Ətraf mühit və Sosial Qiymətləndirmə (ƏMSQ/ESA) prosesi AYİB-in Ətraf Mühit və Sosial Siyasəti (2024), qüvvədə olan Ətraf Mühit və Sosial Tələblər (ƏMST/ESR), müvafiq milli normativ tələblər, eləcə də Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə (GIIP) uyğun olaraq həyata keçirilmişdir.

ESA/ƏMSQ-nin məqsədi aşağıdakılardan ibarət olmuşdur:

- Layihənin ətraf mühit və sosial risk və təsirlərini müəyyən edərək qiymətləndirmək;
- Şirkətin ətraf mühit və sosial idarəetmə sistemlərini, eləcə də siyasət və operativ nəzarət tədbirlərini nəzərdən keçirmək;
- Tətbiq olunan normativ tələblərə və AYİB-in Ətraf Mühit və Sosial Tələblərinə uyğunluğu qiymətləndirmək;
- Ətraf mühit və sosial göstəricilərin yaxşılaşdırılması imkanlarını müəyyən etmək;
- Əməyin mühafizəsi və texniki təhlükəsizlik, əmək münasibətləri, habelə ictimai sağlamlıq və təhlükəsizlik üzrə mövcud tədbirləri qiymətləndirmək; və
- AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə (GIIP) uyğunluğun təmin edilməsinə dəstək məqsədilə Ətraf Mühit və Sosial Fəaliyyət Planını (ƏMSFP/ESAP) hazırlamaq.

ESA/ƏMSQ aşağıdakıları əhatə etmişdir:

- Şirkətin sənəd, siyasət və prosedurlarının, habelə ictimaiyyət üçün açıq olan məlumatlarının nəzərdən keçirilməsi;
- Qüvvədə olan hüquqi və normativ tələblərin nəzərdən keçirilməsi;
- Bakı (Azərbaycan), Almatı (Qazaxıstan) və San-Paulu (Braziliya) şəhərlərində yerləşən əməliyyat obyektlərinə səfərlərin həyata keçirilməsi;
- Şirkətin əməkdaşları və əməliyyat qrupları ilə müsahibələrin aparılması; və
- Ətraf mühit və sosial məsələlər, əməyin mühafizəsi və texniki təhlükəsizlik, ictimai sağlamlıq və texniki təhlükəsizlik, yol hərəkəti təhlükəsizliyi və operativ idarəetmə üzrə mövcud tədbirlərin qiymətləndirilməsi.

## 1.3. AYİB üzrə kateqoriyalaşdırma

ESA / ƏMSQ-nin nəticələrinə əsasən, Layihə AYİB-in Ətraf Mühit və Sosial Siyasətinə uyğun olaraq B kateqoriyasına aid edilmişdir.

Layihənin ətraf mühit və sosial təsirləri əsasən əməliyyat fəaliyyəti ilə bağlıdır, yerli şəraitdən asılıdr və reversiv xarakter daşıyır; bu təsirlər müvafiq təsirazaltma tədbirləri və idarəetmə sistemləri vasitəsilə səmərəli şəkildə idarə oluna bilər. Əsas məsələlərə əməyin mühafizəsi və texniki təhlükəsizlik, yol hərəkəti və yol təhlükəsizliyi, akkumulyatorların və tullantıların idarə edilməsi, əmək münasibətləri və iş şəraiti, ictimai sağlamlıq və texniki təhlükəsizlik, maraqlı tərəflərlə qarşılıqlı əlaqə, habelə ətraf mühit və sosial məsələlər üzrə idarəetmə daxildir.

Qiymətləndirmə prosesi çərçivəsində Layihənin Ətraf Mühit və Sosial Tələblərə (AYİB) və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə tədricən uyğunlaşdırılmasına dəstək olmaq məqsədilə Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ƏMSFP/ESAP) hazırlanmışdır.

# 2. LAYİHƏNİN TƏSVİRİ

## 2.1. Layihənin icmalı

“Jet” şirkəti şəhər mühitindəki müəyyən xidmət ərazilərində rəqəmsal mikromobillik platforması vasitəsilə mikromobillik vasitələrinin (elektrikli skuter və ya elektrikli velosipedlərin) qısamüddətli icarəsi üzrə xidmətlər göstərir. Əməliyyat modeli şəhər nəqliyyat sistemlərində qısa məsafələr üçün (marşrutun ilk və son hissələri arasında əlaqəni təmin edən) çevik şəhər nəqliyyat alternativlərini təqdim etmək məqsədi ilə hazırlanmışdır. İstifadəçilər mobil tətbiq vasitəsi ilə xidmətə çıxış əldə edirlər. Bu tətbiq müştərilərə təsdiq edilmiş əməliyyat zonalarında mikromobillik vasitələrini tapmağa, kilidini açmağa, onlardan istifadə etməyə və gediş haqqını ödəməyə imkan verir. Şirkətin nəqliyyat vasitələri parkında əsasən elektrikli skuterlər üstünlük təşkil edir.

AYİB-in investisiyası (i) Mərkəzi Asiya və Qafqaz (MAvəQ) regionlarında Şirkətin elektrikli skuterlər parkının genişləndirilməsi və (ii) Rusiya mənşəli köhnə proqram təminatından asılılığı aradan qaldırmaq, əməliyyat səmərəliliyini, xidmət keyfiyyətini və normativ tələblərə uyğunluğu artırmaq məqsədi ilə “Jet” şirkətinin mülkiyyət hüququ ilə qorunan proqram təminatının işlənib hazırlanmasının birgə maliyyələşdirilməsi üçün istifadə olunacaq (bundan sonra “Layihə”). Layihə marşrutun ilk və son hissələri arasında əlaqəni yaxşılaşdıran və qısa məsafəli gedişlər üçün daha aşağı emissiyalı nəqliyyat alternativlərindən istifadəni təşviq edən müştərək mikromobillik xidmətləri təqdim etməklə dayanıqlı şəhər mobilliyini dəstəkləyir.

## 2.2. Əməliyyat fəaliyyəti

Şirkətin əməliyyat fəaliyyətinə müştərək elektrikli skuterlərin yerləşdirilməsi, akkumulyatorların doldurulması və dəyişdirilməsi, texniki xidmət və təmir, nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi, logistika, müştərilərə dəstək, habelə nəqliyyat vasitələri parkının istismarını və istifadəçilərlə qarşılıqlı əlaqəni təmin edən rəqəmsal sistemlərin idarə edilməsi daxildir. Əməliyyat fəaliyyəti sahə əməkdaşlarının, eləcə də servis mərkəzləri və anbarların fəaliyyəti, habelə nəqliyyat vasitələri parkının rəqəmsal idarə edilməsi sistemlərinin birgə istifadəsi çərçivəsində təmin olunur.

Nəqliyyat vasitələri parkının istismara hazır vəziyyətdə olmasını, eləcə də etibarlılığını və təhlükəsizliyini təmin etmək məqsədi ilə akkumulyatorların doldurulması, nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi və texniki xidmət fəaliyyətlərinə skuterlərin və litium-ion akkumulyatorların toplanması, doldurulması, daşınması, yoxlanılması, təmiri və yenidən istismara verilməsi daxildir.

## 2.3. Əməliyyat infrastrukturu

Layihə ilə əlaqəli əməliyyat infrastrukturuna servis mərkəzləri, təmir emalatxanaları, anbarlar, akkumulyatorların doldurulması və saxlanması sahələri, əməliyyat nəqliyyat vasitələri, nəqliyyat vasitələri parkının rəqəmsal idarə edilməsi sistemləri, habelə müştərilərə dəstək və operativ nəzarət sistemləri daxildir.

Əməliyyat obyektləri əsasən mövcud kommersiya və ya sənaye ərazilərində yerləşir və elektrik enerjisi / su təchizatı və kanalizasiya sistemləri kimi mövcud kommunal infrastrukturdan istifadə edir.

Layihə skuterlərin və ya akkumulyatorların istehsalını, sənaye yönümlü irimiqyaslı istehsal proseslərini və ya yeni ərazilərdə iri infrastruktur obyektlərinin yaradılmasını nəzərdə tutmur.

## 2.4. Rəqəmsal platforma və operativ idarəetmə sistemləri

Şirkətin əməliyyat modeli nəqliyyat vasitələri parkının istismarı, istifadəçilərlə qarşılıqlı əlaqə və operativ planlaşdırmanın idarə edilməsi üçün əhəmiyyətli dərəcədə rəqəmsal sistemlərə, eləcə də “bulud” əsaslı idarəetmə platformalarına əsaslanır.

Mobil tətbiq platforması (“Jet” və “GoJet” mobil tətbiqləri) istifadəçilərə skuterləri tapmağa, kilidini açmağa, onlardan istifadə etməyə və gediş haqqını ödəməyə, istismar üzrə təlimatlarla tanış olmağa, habelə əməliyyat problemləri və ya insidentlər barədə məlumat verməyə imkan yaradır.

Əməliyyatların idarə edilməsi sistemləri nəqliyyat vasitələri parkının izlənilməsini, geozonaların müəyyənləşdirilməsi və sürətin idarə edilməsini, habelə operativ planlaşdırmanı, işçi heyət fəaliyyətinin əlaqələndirilməsini, akkumulyatorların idarə edilməsini, müştərilərə dəstəyi və fəaliyyət göstəricilərinin monitorinqini təmin edir.

Beləliklə, rəqəmsal sistemlər və telematika Şirkətin əməliyyat və risklərin idarə edilməsi sisteminin mühüm tərkib hissəsini təşkil edir.

## 2.5. Coğrafi fəaliyyət sahəsi və genişlənmə

Şirkət hazırda bir sıra beynəlxalq bazarlarda fəaliyyət göstərir və fəaliyyətini əlavə şəhər və ölkələrdə də genişləndirməyi planlaşdırır.

Bu fəaliyyətə yerli infrastruktur, bələdiyyə tələbləri və normativ-hüquqi çərçivələr, o cümlədən sürətin idarə edilməsi, geozonaların müəyyənləşdirilməsi, parklanma, istifadəçilərə dair uyğunluq meyarları və məlumat mübadiləsi ilə bağlı tələblər təsir göstərir.

Şirkət öz fəaliyyətini yeni şəhər və ölkələrdə genişləndirdikcə, əməliyyatların planlaşdırılması zamanı yerli infrastruktur, yol hərəkəti şəraiti, istifadəçi tələbatı və qüvvədə olan normativ tələblər nəzərə alınacaq.

## 2.6. Layihənin dayanıqlılıq məqsədləri

Layihə aşağı karbonlu mobillik həllərinin təşviqi, qısa məsafəli gedişlər üçün daha yüksək emissiyalı nəqliyyat növlərindən asılılığın azaldılması, marşrutun ilk və son hissələri arasında əlaqənin təmin edilməsinə dəstək, habelə kompleks şəhər mobillik sistemlərinin inkişafı və istixana effekti yaradan qaz emissiyalarının azaldılmasına töhfə verməklə dayanıqlı şəhər nəqliyyatı məqsədlərini dəstəkləyir.

Qiymətləndirmə zamanı nəzərdən keçirilmiş məlumatlara əsasən, Şirkətin hesablamalarına görə platforma vasitəsi ilə həyata keçirilən gedişlərin müəyyən hissəsi əks halda daha yüksək emissiyalı nəqliyyat növləri ilə həyata keçiriləcək gedişləri əvəz edir və bununla da şəhər nəqliyyatı fəaliyyəti ilə əlaqədar istixana effekti yaradan qaz emissiyalarının azaldılmasına töhfə verir.

Həmçinin, AYİB-in korporativ kapitalda iştirak metodologiyasına əsasən, Layihənin Paris Sazişinin təsirazaltma məqsədlərinə uyğun olduğu qiymətləndirilmişdir.

# 3. SİYASƏT, HÜQUQİ VƏ İNSTİTUSİONAL ÇƏRÇİVƏ

## 3.1. İcmal

Ətraf Mühit və Sosial Qiymətləndirmə (ƏMSQ/ESA) AYİB-in Ətraf Mühit və Sosial Siyasətinin (2024) tələblərinə, qüvvədə olan Ətraf Mühit və Sosial Tələblərə (ƏMST/ESR), müvafiq milli normativ tələblərə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə (GIIP) uyğun olaraq həyata keçirilmişdir.

Qiymətləndirmə zamanı Layihənin fəaliyyət göstərdiyi ölkələrdə qüvvədə olan ətraf mühit, əmək münasibətləri, əməyin mühafizəsi və texniki təhlükəsizlik, ictimai sağlamlıq və texniki təhlükəsizlik, maraqlı tərəflərlə qarşılıqlı əlaqə və əməliyyat risklərinin idarə edilməsi üzrə tələblər nəzərə alınmışdır.

Həmçinin, ESA/ƏMSQ çərçivəsində yol təhlükəsizliyi, ictimai infrastrukturla qarşılıqlı əlaqə, rəqəmsal əməliyyat sistemləri və istifadəçilərlə qarşılıqlı əlaqə də daxil olmaqla, müştərək mikromobillik xidmətlərinin əməliyyat xüsusiyyətləri nəzərə alınmışdır.

## 3.2. Tətbiq olunan AYİB tələbləri

Layihə AYİB-in Ətraf Mühit və Sosial Siyasətinin (2024) qüvvədə olan tələbləri, o cümlədən aşağıdakı Ətraf Mühit və Sosial Tələblər (ƏMST/ESR) üzrə qiymətləndirilmişdir:

- ESR 1 / ƏMST 1: Ətraf mühit və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi;
- ESR 2 / ƏMST 2: Əmək münasibətləri və iş şəraiti;
- ESR 3 /ƏMST 3: Resurslardan rasional istifadə, çirklənmənin qarşısının alınması və nəzarət;
- ESR 4/ƏMST 4: Sağlamlıq, əməyin təhlükəsizliyi və mühafizə; və
- ESR 10 / ƏMST 10: Maraqlı tərəflərlə qarşılıqlı əlaqə.

Layihənin xarakter və miqyasını nəzərə alaraq, AYİB-in aşağıdakı ESR/ƏMST-lərinin tətbiq olunmadığı müəyyən edilmişdir:

- ESR 5 / ƏMST 5: Torpaqların alınması, torpaqdan istifadə məhdudiyyətləri və məcburi köçürülmə;
- ESR 6 / ƏMST 6: Bioloji müxtəlifliyin qorunması və canlı təbii resursların dayanıqlı idarə edilməsi;
- ESR 7 / ƏMST 7: Yerli (köklü) xalqlar;
- ESR 8 / ƏMST 8: Mədəni irs; və
- ESR 9/ƏMST 9: Maliyyə vasitəçiləri.

Qiymətləndirmə əsas diqqəti əməliyyat fəaliyyəti ilə bağlı ətraf mühit və sosial risklərin müəyyən edilməsinə, habelə Şirkətin idarəetmə sistemləri, prosedurları və operativ nəzarət tədbirlərinin AYİB-in qüvvədə olan tələblərinə uyğunluğunun qiymətləndirilməsinə yönəltmişdir.

## 3.3. Milli normativ-hüquqi çərçivə

ESA/ƏMSQ çərçivəsində Layihə ilə əlaqədar tətbiq olunan milli ətraf mühit, əmək münasibətləri, əməyin mühafizəsi və texniki təhlükəsizlik, tullantıların idarə edilməsi, nəqliyyat, ictimai sağlamlıq, məlumatların mühafizəsi və digər normativ tələblər nəzərə alınmışdır.

Bundan əlavə, Şirkətin fəaliyyətinə şəhər ərazilərində müştərək mikromobillik xidmətlərinə tətbiq olunan bələdiyyə səviyyəsində operativ nəzarət tədbirləri və mobilliyin idarə edilməsi sistemləri təsir göstərir.

## 3.4. Şəhər səviyyəsində əməliyyat və mobilliyə nəzarət tədbirləri

Fəaliyyətə həmçinin parklanma, geozonaların müəyyənləşdirilməsi, sürət məhdudiyyətləri, istifadəçilərə dair uyğunluq meyarları, əməliyyat zonalarının sərhədləri, nəqliyyat vasitələri parkının yerləşdirilməsi və şəhər nəqliyyatının idarə edilməsi ilə bağlı tələblər də daxil olmaqla, şəhər səviyyəsində operativ nəzarət tədbirləri tətbiq olunur. Bu tələblər yerli infrastruktur, yol hərəkəti şəraiti və bələdiyyələrin normativ tənzimləmə üzrə yanaşmalarından asılı olaraq şəhərdən-şəhərə fərqlənir.

## 3.5. Beynəlxalq standartlar və qabaqcıl beynəlxalq sənaye təcrübəsi

Milli normativ tələblərə və AYİB standartlarına əlavə olaraq, ESA/ƏMSQ çərçivəsində ətraf mühit və sosial məsələlərin idarə edilməsi, əməyin mühafizəsi və texniki təhlükəsizlik, tullantıların idarə edilməsi, fövqəladə hallara hazırlıq, yol hərəkəti təhlükəsizliyi, əmək münasibətləri və maraqlı tərəflərlə qarşılıqlı əlaqə sahələrinə aid müvafiq beynəlxalq standartlar və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsi (GIIP) nəzərə alınmışdır.

Həmçinin, qiymətləndirmə zamanı müştərək mikromobillik xidmətlərinin göstərilməsi, əməliyyat təhlükəsizliyi və akkumulyatorların idarə edilməsi üzrə beynəlxalq səviyyədə tanınmış qabaqcıl təcrübələr də nəzərə alınıb.

## 3.6. ESA / ƏMSQ-nin nəticələri

Aparılmış qiymətləndirməyə əsasən müəyyən edilmişdir ki, Şirkətin fəaliyyəti qiymətləndirmə zamanı ziyarət olunan əməliyyat obyektləri üzrə milli normativ tələblərə ümumilikdə uyğundur. Qiymətləndirmədə həmçinin qeyd olunub ki, müştərək mikromobillik əməliyyatlarını tənzimləyən normativ-hüquqi çərçivələr əməliyyat təhlükəsizliyi, skuter istifadəçilərinə nəzarət, parklanmanın idarə edilməsi, məlumatların inteqrasiyası və normativ uyğunluğun monitorinqi ilə bağlı tələbləri artırmaqla bir neçə əməliyyat ölkə və şəhərlərini əhatə edir.

Qiymətləndirmə zamanı mövcud olan məlumatlara əsasən, normativ tələblərə uyğunsuzluq ilə bağlı hər hansı əhəmiyyətli hal müəyyən edilməmişdir. Bununla belə, AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə (GIIP) davamlı uyğunluğu təmin etmək məqsədi ilə ətraf mühit və sosial məsələlər üzrə idarəetmənin, idarəetmə sistemlərinin, monitorinqin, əməyin mühafizəsi və texniki təhlükəsizliyin, əmək münasibətlərinin idarə edilməsinin, ətraf mühit üzrə fəaliyyət (icra) göstəricilərinin monitorinqinin və sənədlərə nəzarətin daha da gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Buna görə də, Şirkətin fəaliyyət göstərdiyi bütün ölkələrdə ətraf mühit və sosial məsələlərin idarə edilməsi sistemlərinin və operativ nəzarət tədbirlərinin tədricən gücləndirilməsinə dəstək məqsədi ilə Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ƏMSFP/ESAP) hazırlanmışdır. ƏMSFP/ESAP-ın xülasəsi və təklif olunan təsirazaltma tədbirləri bu Qeyri-texniki xülasənin 6-cı bölməsində təqdim olunur.

# 4. ƏTRAF MÜHİT VƏ SOSİAL ŞƏRAİTN İLKİN VƏZİYYƏTİ

## 4.1. Mövcud fəaliyyətə ümumi baxış

Şirkətin fəaliyyəti əsasən xidmətlərin göstərilməsinə yönəlmişdir və sənaye, yaxud istehsal xarakteri daşımır. Əməliyyat fəaliyyəti əsasən Şirkətin fəaliyyət göstərdiyi şəhərlərdə yerləşən servis mərkəzləri, anbarlar və akkumulyatorların doldurulması sahələri də daxil olmaqla, mövcud şəhər kommersiya və ya sənaye obyektlərində həyata keçirilir.

Layihə rəqəmsal platformalar, sahə əməliyyatları, texniki xidmət fəaliyyəti, akkumulyatorların idarə edilməsi sistemləri və müştərilərə dəstək funksiyaları ilə təmin olunan müştərək elektrik skuterləri parkının istismarını nəzərdə tutur. Əməliyyat fəaliyyətinə akkumulyatorların doldurulması və dəyişdirilməsi, skuterlərin yoxlanılması və texniki xidməti, nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi, anbar və saxlama əməliyyatları, müştərilərə dəstək və nəqliyyat vasitələri parkının rəqəmsal idarə edilməsi daxildir.

Akkumulyatorların doldurulması, texniki xidmət və servis fəaliyyəti nəqliyyat vasitələri parkının istismara hazır vəziyyətdə olmasını, etibarlılığını və təhlükəsizliyini təmin etmək məqsədilə skuterlərin və litium-ion akkumulyatorların toplanmasını, doldurulmasını, saxlanmasını, yoxlanılmasını, təmirini və yenidən istismara verilməsini əhatə edir. Nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi fəaliyyəti əməliyyat ərazilərində skuterlərin əlçatanlığını təmin edir və yol hərəkəti şəraiti, istifadəçi tələbatı və əməliyyatların planlaşdırılması nəzərə alınmaqla həyata keçirilir.

Rəqəmsal sistemlər və telematika nəqliyyat vasitələri parkının izlənilməsini, əməliyyatların planlaşdırılmasını, geozonaların müəyyənləşdirilməsini, tapşırıqların bölüşdürülməsini, insidentlərə cavab tədbirlərini və əməliyyat göstəricilərinin monitorinqini təmin edir. Qiymətləndirmə zamanı müşahidə edildi ki, ziyarət olunan obyektlərdə elektrik enerjisi / su təchizatı və kanalizasiya sistemləri də daxil olmaqla, mövcud kommunal infrastrukturdan istifadə olunur. Layihə çərçivəsində hər hansı iri sənaye istehsalı prosesi, istehsal fəaliyyəti və ya irimiqyaslı stasionar sənaye infrastrukturu müəyyən edilməmişdir.

Fəaliyyət şəhər mühitində həyata keçirilir və buna görə də yol hərəkəti şəraiti, ictimai infrastruktur, istifadəçilərin davranışı və şəhər səviyyəsində mobilliyə nəzarət tədbirləri əməliyyat göstəricilərinə və risklərin idarə edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

## 4.2. Ətraf mühitin ilkin vəziyyəti

Şirkətin fəaliyyəti əsasən xidmətlərin göstərilməsinə yönəlmişdir və sənaye istehsalını və ya irimiqyaslı stasionar sənaye infrastrukturunu nəzərdə tutmur. Nəticə etibarilə, ətraf mühit ilə bağlı əsas aspektlər kiçik həcmli resurs istehlakı, tullantıların yaranması, akkumulyatorların idarə edilməsi və logistika fəaliyyəti ilə məhdudlaşır.

Elektrik enerjisi əsasən litium-ion akkumulyatorların doldurulması üçün istehlak olunur, yanacaq isə əsasən nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi və daşınması üçün istifadə olunan logistika nəqliyyat vasitələri tərəfindən sərf olunur.

Layihə ilə əlaqədar su istehlakı nisbətən məhduddur və əsasən skuterlərin yuyulması və əməliyyat obyektlərində məişət məqsədli istifadə ilə bağlıdır. Əməliyyat fəaliyyəti nəticəsində yaranan tullantı sularının mövcud kommunal kanalizasiya sistemlərinə axıdıldığı müşahidə edilmiş, qiymətləndirmə zamanı təbii su hövzələrinə birbaşa axıdılma halları müəyyən edilməmişdir.

Əsas tullantı növlərinə məişət / qablaşdırma tullantıları, zədələnmiş skuter komponentləri, elektron tullantılar, istismar müddəti başa çatmış akkumulyatorlar və texniki xidmət fəaliyyəti zamanı yaranan az miqdarda təhlükəli tullantılar daxildir.

Litium-ion akkumulyatorlar onların saxlanması, doldurulması, daşınması və istismar müddəti başa çatdıqdan sonra idarə edilməsi ilə bağlı potensial risklərə görə əsas ətraf mühit aspektlərindən birini təşkil edir. Həmçinin, texniki xidmət fəaliyyəti zamanı az miqdarda boya, durulaşdırıcı və digər kimyəvi maddələrdən istifadə oluna bilər.

Qiymətləndirmə zamanı sənaye və ya texnoloji proseslərlə bağlı əhəmiyyətli atmosfer emissiyaları müəyyən edilməmişdir. Atmosferə emissiyalar əsasən elektrik enerjisi istehlakı və logistika nəqliyyat vasitələrinin istismarı ilə əlaqədardır.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, Şirkət tullantıların idarə edilməsi, akkumulyatorların idarə edilməsi və texniki xidmət fəaliyyəti üzrə operativ nəzarət tədbirləri tətbiq etmişdir. Bununla belə, bütün əməliyyatlar üzrə ətraf mühit monitorinqinin və fəaliyyət (icra) göstəricilərinin izlənilməsini daha da gücləndirmək olar.

Resurs istehlakının monitorinqi, tullantıların və təkrar emalın uçotu, istixana effekti yaradan qaz emissiyalarının monitorinqi, tullantı sularının idarə edilməsi, habelə bütün əməliyyatlar üzrə ətraf mühit göstəricilərinə dair məlumatların konsolidasiyası ilə bağlı təkmilləşdirmə imkanları müəyyən edilmişdir.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olaraq ətraf mühit monitorinqini və resurslardan rasional istifadəni daha da gücləndirmək olar.

## 4.3. Əmək münasibətləri və sosial sahə üzrə ilkin vəziyyət

Şirkət fəaliyyət göstərdiyi ölkələrdə həm birbaşa işə götürülən işçilərin, həm də müqavilə əsasında çalışan işçilərin əməyindən istifadə edir. İşçilər və müqavilə əsasında çalışan əməkdaşlar Şirkətin müştərək mikromobillik xidmətləri ilə bağlı müxtəlif əməliyyat və dəstək fəaliyyətlərinə cəlb olunurlar.

İşçi heyətinin əsas fəaliyyət istiqamətlərinə skuterlərə texniki xidmət və servis, akkumulyatorların doldurulması və dəyişdirilməsi, nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi və logistika, anbar əməliyyatları, müştərilərə dəstək və əməliyyatların rəqəmsal idarə edilməsi daxildir.

İşçi heyətinin əhəmiyyətli hissəsi skuter və akkumulyatorların toplanması, doldurulması, daşınması və yenidən yerləşdirilməsi ilə bağlı sahə fəaliyyətini həyata keçirir. Buna görə də, iş şəraitinə yol hərəkəti şəraiti, iş qrafikləri, hava şəraiti, habelə ictimai infrastruktur və yol hərəkəti iştirakçıları ilə qarşılıqlı əlaqə təsir göstərir.

Şirkət bərabər imkanlar, uşaq əməyinin və məcburi əməyin qarşısının alınması, iş yerində davranış, gender əsaslı zorakılıq və qısnama, iş şəraiti, habelə əməyin mühafizəsi və texniki təhlükəsizlik vəzifələrini ehtiva edən əmək münasibətləri və insan resursları üzrə siyasətlər müəyyən etmişdir.

İşçilər əməkhaqqı, iş rejimi və məzuniyyət hüquqları da daxil olmaqla, əmək münasibətlərinin şərtlərini müəyyən edən yazılı əmək müqavilələri əsasında işə cəlb olunurlar. Şirkət əməliyyat, texniki xidmət və sahə fəaliyyətinə cəlb olunan işçi heyətini əməliyyat fəaliyyəti üzrə təlimlər və yerinə yetirilən işlərə uyğun fərdi qoruyucu vasitələr (FQV/PPE) ilə təmin edir.

Şirkət əməliyyat obyektlərində nəzarət, istirahət sahələri, sanitar-məişət şəraiti və ilkin tibbi yardım vasitələri də daxil olmaqla, işçilərin rifahının təmin edilməsi üçün müvafiq şərait yaratmışdır. Şirkət həmçinin milli qanunvericiliyin tələblərinə uyğun olaraq işçilərin müvafiq yerli səhiyyə və sığorta sistemləri vasitəsilə tibbi xidmətlərdən istifadə imkanına malik olduqlarını da bildirmişdir.

Şirkətin apardığı qiymətləndirmə zamanı əmək qanunvericiliyinin pozulması halları və ya əmək mübahisələri müəyyən edilməmişdir. Obyektlərə səfərlər zamanı işçilər ilə aparılmış müzakirələr qiymətləndirmənin aparıldığı dövrdə əmək şəraiti və ya iş yerində rəftar xüsusunda hər hansı ciddi narahatlığın mövcudluğunu göstərməmişdir.

İşə qəbul və uyğunlaşma, əmək münasibətlərinin idarə edilməsi prosedurları, psixososial risklərin idarə edilməsi, sənədləşdirmə, habelə əmək münasibətlərinin idarə edilməsinin Şirkətin Ətraf Mühit və Sosial İdarəetmə Sisteminə inteqrasiyası ilə bağlı təkmilləşdirmə imkanları müəyyən edilmişdir.

## 4.4. Əməyin mühafizəsi və təhlükəsizlik üzrə ilkin vəziyyət

Layihə sahə əməliyyatları, akkumulyatorların doldurulması və onlarla iş, texniki xidmət fəaliyyəti, logistika, yüklərin əl ilə daşınması, habelə yol hərəkəti və ictimai mühitlə qarşılıqlı əlaqə ilə bağlı əməyin mühafizəsi və texniki təhlükəsizlik riskləri yaradan əməliyyat fəaliyyətini əhatə edir.

Əməyin mühafizəsi və texniki təhlükəsizlik sahəsində əsas təhlükələrə yol hərəkəti ilə bağlı insidentlər, yüklərin əl ilə daşınması zamanı xəsarətlər, akkumulyatorlar və elektrik avadanlıqları ilə bağlı təhlükələr, sürüşmə, büdrəmə və yıxılma halları, yanğın təhlükələri, erqonomik risklər və sahə əməliyyatları ilə bağlı psixososial risklər daxildir.

Əməliyyat fəaliyyətinin əhəmiyyətli hissəsi akkumulyatorların dəyişdirilməsi, skuterlərin toplanması, nəqliyyat vasitələri parkının yenidən yerləşdirilməsi və logistika fəaliyyəti zamanı sahə əməkdaşlarının şəhər yol hərəkəti şəraitində fəaliyyət göstərməsini nəzərdə tutur. Nəticədə, iş fəaliyyəti ilə bağlı yol təhlükəsizliyi Şirkətin əməliyyat risk profilinin mühüm tərkib hissəsini təşkil edir.

Şirkət yanğın təhlükəsizliyi, akkumulyatorlarla iş, elektrik təhlükəsizliyi, yükləmə və boşaltma, avadanlıqların təhlükəsiz istismarı, ilkin tibbi yardım və kimyəvi maddələrlə iş kimi fəaliyyətləri ehtiva edən əməyin mühafizəsi və texniki təhlükəsizlik siyasətləri, operativ prosedurlar və standart əməliyyat prosedurlarını müəyyən etmişdir.

Obyektlərə səfərlər zamanı işçilərin yerinə yetirdikləri işlərə uyğun fərdi qoruyucu vasitələrdən (FQV) istifadə etdikləri müşahidə edilmiş, əməliyyat obyektlərinin isə əsas yanğınsöndürmə və ilkin tibbi yardım vasitələri, habelə işçilərin rifahının təmin edilməsi üçün müvafiq şəraitlə təchiz olunduğu müəyyən edilmişdir.

Qiymətləndirmə zamanı həmçinin əməliyyat obyektlərində müvafiq ixtisas və sertifikata malik elektrik təhlükəsizliyi üzrə mütəxəssislərin çalışdığı, obyektlərə səfərlər zamanı yoxlanılmış elektrik avadanlıqlarının isə ümumilikdə lazımi qaydada torpaqlandığı qeyd edilmişdir.

Şirkət bildirmişdir ki, işçilər (işə qəbul edilməzdən əvvəl və sonra) mütəmadi olaraq qanunvericiliyin tələblərinə uyğun tibbi müayinədən keçirlər. Həmçinin bildirilib ki, işçilər müvafiq yerli sığorta sistemləri vasitəsilə tibbi xidmətlərdən istifadə imkanına malikdirlər.

Əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə bir sıra tədbirlər artıq tətbiq olunsa da, əməyin mühafizəsi və texniki təhlükəsizliyin idarə edilməsi üzrə formal sistemin daha da gücləndirilməsi üçün imkanlar müəyyən edilmişdir.

Formal risk qiymətləndirilməsi prosesləri, insidentlərin araşdırılması sistemləri, fövqəladə hallara hazırlıq tədbirləri, əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə fəaliyyət göstəricilərinin monitorinqi, psixososial risklərin idarə edilməsi, habelə əməliyyat təhlükəsizliyinin monitorinqinin daha geniş idarəetmə sistemlərinə inteqrasiyası ilə bağlı təkmilləşdirmə imkanları müəyyən edilmişdir.

Ümumilikdə, qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Şirkət əməyin mühafizəsi və təhlükəsizlik üzrə əsas tədbirləri tətbiq etmişdir və AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olaraq rəhbərlik, idarəetmə sistemləri və monitorinqin daha da gücləndirilməsi mümkündür.

## 4.5. İctimai sağlamlıq və təhlükəsizlik üzrə ilkin vəziyyət

Layihə ilə bağlı ictimai sağlamlıq və texniki təhlükəsizlik sahəsində potensial risklər əsasən şəhər mühitində müştərək elektrikli skuter xidmətlərinin göstərilməsi zamanı skuter istifadəçiləri, piyadalar, ictimai infrastruktur və digər yol hərəkəti iştirakçıları arasında qarşılıqlı əlaqədən irəli gəlir.

Layihənin əməliyyat modeli şəhər mühitində müştərək elektrikli skuterlərin yerləşdirilməsini nəzərdə tutur ki, bu da skuter istifadəçilərinin piyadalar, velosipedçilər, motorlu nəqliyyat vasitələri, ictimai nəqliyyat sistemləri, bələdiyyə infrastrukturu və uşaqlar, yaşlı şəxslər və əlilliyi olan şəxslər də daxil olmaqla, həssas yol hərəkəti iştirakçıları ilə mütəmadi qarşılıqlı əlaqəsinə səbəb olur.

Şirkət müştərək mikromobillik xidmətlərinin təhlükəsiz şəkildə inteqrasiyasını təmin etmək məqsədi ilə sürətin idarə edilməsi, geozonaların müəyyənləşdirilməsi, parklanma nəzarəti, istifadəçilərə dair uyğunluq tələbləri, mobil tətbiq daxilində təhlükəsizlik üzrə təlimatlar, skuterlərin dövri yoxlanılması və texniki xidməti, habelə müəyyən edilmiş ərazilərdə əməliyyat məhdudiyyətləri də daxil olmaqla, əməliyyat nəzarəti tədbirləri tətbiq etmişdir. Geozonaların müəyyənləşdirilməsi və sürətin idarə edilməsi üzrə nəzarət tədbirləri piyadalar, ictimai infrastruktur və digər yol hərəkəti iştirakçıları üçün riskləri azaltmaq məqsədilə müəyyən edilmiş əməliyyat zonalarında tətbiq olunur.

Hazırda tətbiq olunan əməliyyat nəzarəti tədbirlərinə baxmayaraq, müştərək mikromobillik xidmətləri mahiyyət etibarilə ictimai şəhər mühitində elektrikli skuterlərin istismarı ilə bağlı ictimai sağlamlıq və texniki təhlükəsizlik sahəsində müəyyən risklər yaradır.

İctimaiyyət üçün potensial narahatlıq doğuran məsələlərə yol təhlükəsizliyi, skuter istifadəçiləri ilə piyadalar arasında qarşılıqlı əlaqə, həssas yol hərəkəti iştirakçıları üçün risklər, düzgün olmayan parklanma, təhlükəli sürmə davranışları və ictimai infrastrukturla qarşılıqlı əlaqə daxildir. Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, yol təhlükəsizliyi risklərinə skuter istifadəçilərinin davranışı, yol hərəkəti şəraiti, piyadaların hərəkəti, infrastruktur məhdudiyyətləri və əməliyyat nəzarəti tədbirlərinin effektivliyi təsir göstərir.

ESA/ƏMSQ çərçivəsində aparılmış Yol Hərəkəti və Yol Təhlükəsizliyinin Qiymətləndirilməsi müəyyən etmişdir ki, əməliyyat fəaliyyəti ilə bağlı insidentlərin ümumi gediş sayına nisbətdə göstəricisi

nisbətən aşağı səviyyədə qalsa da, təhlükəsizlik risklərinə davranış, infrastruktur və əməliyyat amilləri təsir göstərir.

Qiymətləndirmə zamanı qeyd edilmişdir ki, ictimaiyyətin müştərək mikromobillik xidmətlərinə münasibəti gələcəkdə sürətin idarə edilməsi, parklanma, istifadəçilərin şəxsiyyətinin təsdiqlənməsi, sığorta, məlumat mübadiləsi və əməliyyat nəzarəti ilə bağlı bələdiyyə səviyyəsində normativ tələblərə təsir göstərə bilər.

Rəqəmsal sistemlər və telematika nəqliyyat vasitələri parkının idarə edilməsində, eləcə də istifadəçilərə nəzarət, əməliyyatların monitorinqi, habelə ictimai sağlamlıq və təhlükəsizlik risklərinin idarə edilməsində mühüm rol oynayır.

İctimai sağlamlıq və texniki təhlükəsizliyin idarə edilməsi, məlumatlar əsasında təhlükəsizlik monitorinqinin aparılması, əməliyyat və insident məlumatlarının təhlili, yüksək riskli əməliyyat zonalarının müəyyən edilməsi, skuter istifadəçilərinin davranışının monitorinqi, maraqlı tərəflərlə kommunikasiya, habelə yol hərəkəti təhlükəsizliyi məsələlərinin əməliyyatların planlaşdırılmasına inteqrasiyası ilə bağlı təkmilləşdirmə imkanları müəyyən edilmişdir.

Ümumilikdə isə qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Şirkət ictimai sağlamlıq və texniki təhlükəsizliyin təmin edilməsinə yönəlmiş bir sıra operativ nəzarət tədbirləri tətbiq etmişdir və AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olaraq rəsmi risk qiymətləndirilməsini, təhlükəsizlik monitorinqini və yol hərəkəti təhlükəsizliyinin idarə edilməsini daha da gücləndirilmək mümkündür.

# 5. ƏSAS ƏTRAF MÜHİT VƏ SOSİAL MƏSƏLƏLƏRİN VƏ TƏSİRAZALTMA TƏDBİRLƏRİNİN XÜLASƏSİ

## 5.1. AYİB ESR 1 / ƏMST 1 – Ətraf mühit və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi

Qiymətləndirmə zamanı aşkar edilmişdir ki, Şirkət əməyin mühafizəsi və texniki təhlükəsizlik, əmək münasibətlərinin idarə edilməsi, operativ nəzarət, maraqlı tərəflərlə qarşılıqlı əlaqə və korporativ idarəetmə ilə bağlı bir sıra sosial-ekoloji siyasətlər, eləcə də prosedur və istismar təcrübələrini müəyyən edib.

Bununla belə, qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, hazırda bu tədbirlər bir-birindən ayrı olan müxtəlif prosedurlar və əməliyyat təcrübələri vasitəsilə həyata keçirilir və hələ AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun kompleks Ətraf Mühit və Sosial İdarəetmə Sisteminə (ƏMSİS/ESMS) tam inteqrasiya edilməyib.

Qiymətləndirmə zamanı ətraf mühit və sosial məsələlər üzrə idarəetmə, eləcə də monitorinq və hesabatlılıq, qanunvericilik tələblərinə uyğunluq, podratçıların və təchizat zəncirinin idarə edilməsi, əməliyyat məlumatlarının inteqrasiyası, iqlim risklərinin qiymətləndirilməsi və sənədlərə nəzarətin gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Ətraf mühit və sosial fəaliyyət göstəricilərinə dair məlumatlar Şirkətin əməliyyat sistemlərində mövcuddur; lakin bu məlumatlar hələ Şirkətin fəaliyyət göstərdiyi bütün ölkələri əhatə edən strukturlaşdırılmış ətraf mühit və sosial monitorinq çərçivəsində tam şəkildə konsolidasiya edilməmişdir.

Nəqliyyat vasitələri parkının idarə edilməsini və istifadəçilərlə qarşılıqlı əlaqəni təmin edən informasiya texnologiyaları üzrə idarəetmə, kibertəhlükəsizlik və rəqəmsal əməliyyat sistemlərinin idarə edilməsinin gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Həmçinin müəyyən edilmişdir ki, yeni əməliyyat ərazilərində ətraf mühit və sosial qiymətləndirmə proseslərini, o cümlədən yol hərəkəti təhlükəsizliyi, iqlimlə bağlı risklər və təchizat zənciri risklərinin nəzərə alınmasını daha da gücləndirmək mümkündür.

ESA / ƏMSQ AYİB-in tələblərinə uyğun inteqrasiya olunmuş Ətraf Mühit və Sosial İdarəetmə Sisteminin (ƏMSİS/ESMS) tətbiqini tövsiyə edir. Bu sistem idarəetmə mexanizmlərini, risklərin qiymətləndirilməsini, monitorinqi, maraqlı tərəflərlə qarşılıqlı əlaqəni, fövqəladə hallara hazırlığı, insidentlərin idarə edilməsini və davamlı təkmilləşdirmə proseslərini əhatə etməlidir.

ESMS / ƏMSİS ətraf mühit və sosial risklərin bütün əməliyyatlar üzrə ardıcıl şəkildə idarə edilməsini təmin etmək məqsədi ilə Şirkətin mövcud əməliyyat idarəetmə sistemləri və rəqəmsal platformaları ilə inteqrasiya ediləcək.*

## 5.2. AYİB ESR 2 / ƏMST 2 - Əmək münasibətləri və iş şəraiti

Mövcud əmək siyasətləri bərabər imkanlar, uşaq əməyinin və məcburi əməyin qarşısının alınması, iş yerində davranış, gender əsaslı zorakılıq və qısnama, iş şəraiti, habelə əməyin mühafizəsi və təhlükəsizlik üzrə vəzifələri əhatə edir.

Bir qayda olaraq, işçilər iş rejimi, əməkhaqqı və məzuniyyət şərtləri də daxil olmaqla, əmək münasibətlərinin əsas şərtlərini müəyyən edən yazılı əmək müqavilələri əsasında işə cəlb olunurlar. Texniki xidmət, akkumulyatorların doldurulması, logistika və sahə fəaliyyətinə cəlb olunan əməliyyat heyəti yerinə yetirdikləri tapşırıqlara uyğun əməliyyat təlimləri və fərdi qoruyucu vasitələrlə (FQV) təmin olunur. Obyektlərə səfərlər zamanı işçilərlə aparılmış müzakirələr qiymətləndirmənin aparıldığı dövrdə əmək şəraiti və ya iş yerində rəftar ilə bağlı hər hansı ciddi narahatlığın mövcudluğunu göstərməmişdir. Şirkət iş yerində yaranan məsələlər xüsusunda işçilər ilə kommunikasiya və şikayətlərin baxılması mexanizmləri yaratmışdır.

Bununla belə, bir sıra sahələrdə əmək münasibətlərinin idarə edilməsi sistemlərinin, eləcə də rəsmi prosedurların gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, yeni işə qəbul olunan işçilərin işə giriş və işə uyğunlaşması hazırda əsasən əməliyyat rəhbərliyi tərəfindən nəzarət və qeyri-rəsmi tanışlıq prosesləri vasitəsi ilə həyata keçirilir. İşçilərin hüquqları, iş yerində davranış qaydaları, şikayətlərin baxılması mexanizmləri, əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə vəzifələr və iş prosesinə dair tələbləri əhatə edən daha formal və strukturlaşdırılmış işə giriş proqramı tətbiq ediləcək.

Bundan əlavə, işə giriş proqramları, podratçıların idarə olunması, psixososial risklərin idarə edilməsi, işçilərin rifahı, sənədləşdirmə və əmək münasibətlərinin idarə edilməsinin inteqrasiyası ilə bağlı bəzi təkmilləşdirmə imkanları müəyyən edilmişdir və bunlar Şirkətin ESMS/ƏMSİS-in davamlı təkmilləşdirilməsi çərçivəsində nəzərə alınacaq.

## 5.3. AYİB ESR 3 / ƏMST 3 - Resurslardan rasional istifadə, çirklənmənin qarşısının alınması və nəzarət;

Layihədə istehsal fəaliyyəti, əhəmiyyətli sənaye emissiyaları və ya irimiqyaslı çirklənmə mənbələrinin olması nəzərdə tutulmur. Şirkətin fəaliyyəti əsasən xidmətlərin göstərilməsinə yönəlmişdir və ətraf mühitlə bağlı əsas aspektlər akkumulyatorların doldurulması üçün elektrik enerjisinin istehlakı, skuterlərin yuyulması və məişət məqsədləri üçün sudan istifadə, texniki xidmət fəaliyyəti nəticəsində tullantıların yaranması, akkumulyatorların idarə edilməsi, elektron tullantılar, logistika fəaliyyəti ilə bağlı yanacaq istehlakı və dolayı istixana effekti yaradan qaz emissiyaları ilə əlaqədardır.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, Şirkət akkumulyatorlar ilə iş, texniki xidmət fəaliyyəti və tullantıların idarə edilməsi üzrə operativ nəzarət tədbirləri tətbiq etmişdir. Bununla belə, bütün əməliyyatlar üzrə ətraf mühitin idarə edilməsi sistemləri, ətraf mühit üzrə fəaliyyət (icra) göstəricilərinin monitorinqi və resurslardan rasional istifadənin daha da gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Əsas təkmilləşdirmə imkanlarına resurs istehlakının monitorinqinin, tullantıların uçotu və təkrar emalının, akkumulyatorların istismar dövrünün idarə edilməsinin, təhlükəli tullantıların və kimyəvi maddələrin idarə edilməsinin, istixana effekti yaradan qaz emissiyalarının və tullantı sularının monitorinqinin, habelə Şirkətin fəaliyyət göstərdiyi ölkələrdə ətraf mühit göstəricilərinə dair məlumatların konsolidasiyasının gücləndirilməsi daxildir.

Layihə qısa məsafəli səfərlər üçün daha az emissiyalı nəqliyyat alternativləri təqdim etməklə və daha yüksək emissiyalı nəqliyyat növlərindən asılılığın azaldılmasına töhfə verməklə dayanıqlı şəhər nəqliyyatı məqsədlərini dəstəkləyir.

AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olaraq, resurs istehlakının, tullantıların yaranmasının, istixana effekti yaradan qaz emissiyalarının və ətraf mühit üzrə fəaliyyət (icra) göstəricilərinin monitorinqini əhatə edən strukturlaşdırılmış Resurslardan Rasional İstifadə və Çirklənmənin Qarşısının Alınması konsepsiyasının yaradılması tövsiyə edilmişdir. Bu konsepsiya resurslardan istifadənin səmərəliliyini artırmaq və ətraf mühitə təsirləri minimuma endirmək məqsədi ilə əməliyyat təcrübələrinin dövri nəzərdən keçirilməsi ilə birlikdə tətbiq ediləcək.

## 5.4. AYİB ESR 4 / ƏMST 4 – Sağlamlıq və əməyin təhlükəsizliyi

Layihə şəhər mühitində müştərək mikromobillik xidmətlərinin göstərilməsi ilə bağlı əməyin mühafizəsi və texniki təhlükəsizlik, habelə ictimai sağlamlıq və texniki təhlükəsizlik risklərini ehtiva edir. Əsas risklər litium-ion akkumulyatorların idarə edilməsi, elektrik sistemləri, texniki xidmət fəaliyyəti, logistika əməliyyatları, iş fəaliyyəti ilə bağlı yol təhlükəsizliyi, skuter istifadəçilərinin davranışı, habelə elektrik skuterlərinin istismarı, piyadalar və digər yol hərəkəti iştirakçıları arasında qarşılıqlı əlaqə ilə bağlıdır.

### Əməyin mühafizəsi və texniki təhlükəsizlik

Əməyin mühafizəsi və texniki təhlükəsizlik sahəsində əsas risklərə elektrik təhlükələri, akkumulyatorlarla iş və onların saxlanması, yanğın təhlükələri, texniki xidmət fəaliyyəti, yüklərin əl ilə daşınması, kimyəvi maddələrlə iş, əmək fəaliyyəti ilə bağlı yol təhlükəsizliyi və sahə əməliyyatları ilə əlaqədar psixososial risklər daxildir.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, Şirkət akkumulyatorlarla iş, yanğın təhlükəsizliyi, elektrik təhlükəsizliyi və sahə əməkdaşları üçün əməliyyat təhlükəsizliyi prosedurları da daxil olmaqla, əməyin mühafizəsi və texniki təhlükəsizlik prosedurları və operativ nəzarət tədbirləri müəyyən etmişdir. Obyektlərə səfərlər zamanı işçilərin müvafiq fərdi qoruyucu vasitələrdən (FQV istifadə etdikləri müşahidə edilmiş, əməliyyat obyektlərinin isə əsas yanğınsöndürmə və ilkin tibbi yardım vasitələri ilə təchiz olunduğu müəyyən edilmişdir. Layihə çərçivəsində peşə risklərinin qiymətləndirilməsi, insidentlərin (hadisələrin) araşdırılması, fövqəladə hallara hazırlıq, psixososial risklərin idarə edilməsi və bütün əməliyyatlar üzrə operativ təhlükəsizliyin monitorinqinin inteqrasiyası da daxil olmaqla, əməyin mühafizəsi və texniki təhlükəsizliyin idarə edilməsi sisteminin daha da gücləndirilməsi və rəsmiləşdirilməsi təmin ediləcək.

**Yol hərəkəti və yol təhlükəsizliyi**

Yol Hərəkəti və Yol Təhlükəsizliyinin Qiymətləndirilməsi zamanı müəyyən edilmişdir ki, yol təhlükəsizliyi risklərinə skuter istifadəçilərinin davranışı, piyadalar və həssas yol hərəkəti iştirakçıları ilə qarşılıqlı əlaqə, yol hərəkəti şəraiti, infrastruktur məhdudiyyətləri və şəhər səviyyəsində əməliyyat nəzarəti tədbirləri təsir göstərir. Şirkət sürətin idarə edilməsi, geozonaların müəyyənləşdirilməsi, parklanma nəzarəti, skuter istifadəçiləri üçün təlimatlar, skuterlərin yoxlanılması və texniki xidmət proqramları, habelə müəyyən ərazilərdə əməliyyat məhdudiyyətləri də daxil olmaqla, bir sıra operativ təhlükəsizlik tədbirləri tətbiq etmişdir.

Layihənin icrası zamanı məlumatlara əsaslanan yol hərəkəti təhlükəsizliyi monitorinqinin təkmilləşdirilməsi, əməliyyat və insident məlumatlarının təhlili, yüksək riskli əməliyyat ərazilərinin müəyyən edilməsi, sahə əməkdaşları üçün marşrutların planlaşdırılması üzrə təlimatların hazırlanması, skuter istifadəçilərinin məlumatlılığının artırılması üzrə tədbirlər, bələdiyyə orqanları ilə koordinasiya və yol hərəkəti təhlükəsizliyi məsələlərinin inteqrasiyası əməliyyatların planlaşdırılması çərçivəsində həyata keçiriləcək.

**İctimai sağlamlıq və təhlükəsizlik**

Qiymətləndirmə zamanı skuter istifadəçilərinin davranışı, piyadalarla qarşılıqlı əlaqə, qeyri-düzgün parklanma, həssas yol hərəkəti iştirakçıları və ictimai şəhər mühitində müştərək elektrikli skuterlərinin istismarı ilə bağlı ictimai sağlamlıq və texniki təhlükəsizlik riskləri müəyyən edilmişdir. Şirkət müştərək mikromobillik xidmətlərinin təhlükəsiz inteqrasiyasını təmin etmək məqsədi ilə operativ nəzarət tədbirləri tətbiq etmişdir; bununla belə, konkret ərazilər üzrə risklərin qiymətləndirilməsi, operativ təhlükəsizliyə dair məlumatların monitorinqi, telematika və insidentlərə (hadisələrə) dair məlumatların qərar qəbuletmə prosesinə inteqrasiyası, maraqlı tərəflərlə kommunikasiya və təhlükəsizlik üzrə fəaliyyət (icra) göstəriciləri əsasında operativ nəzarət tədbirlərinin dövri nəzərdən keçirilməsi vasitəsi ilə ictimai sağlamlıq və texniki təhlükəsizliyin idarə edilməsinin daha da gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Ümumilikdə, qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Şirkət əməyin mühafizəsi və texniki təhlükəsizlik, habelə ictimai sağlamlıq və texniki təhlükəsizliyin təmin edilməsinə yönəlmiş bir sıra operativ nəzarət tədbirləri tətbiq etmişdir və qüvvədə olan yerli qanunvericiliyin, eləcə də AYİB tələblərinin və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinin tələblərinə uyğun olaraq yol hərəkəti təhlükəsizliyi üzrə idarəetmənin, monitorinq mexanizmlərinin və fövqəladə hallara hazırlığın daha da gücləndirilməsi imkanları mövcuddur.

### 5.5. AYİB ESR 10 / ƏMST 10 – Məlumatların açıqlanması və maraqlı tərəflərlə qarşılıqlı əlaqə

Layihə Şirkətin fəaliyyət göstərdiyi ərazilərdə işçilər, müqavilə əsasında çalışan işçilər, skuter istifadəçiləri, piyadalar, bələdiyyə orqanları, təchizatçılar, podratçılar, yerli icmalar və şəhər infrastrukturunun digər istifadəçiləri də daxil olmaqla, geniş maraqlı tərəflər ilə qarşılıqlı əlaqəni ehtiva edir.

Şirkət müxtəlif şəhərlər üzrə maraqlı tərəflərin müəyyən edilməsi, məlumatların açıqlanması, məsləhətləşmələr, maraqlı tərəflərlə qarşılıqlı əlaqə və bütün əməliyyatlar üzrə şikayətlərin idarə edilməsi üçün strukturlaşdırılmış konsepsiyanı müəyyən edən bir neçə Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP/SEP) hazırlamışdır. Layihənin bir neçə ərazidə həyata keçirilməsi ilə əlaqədar olaraq, Şirkət daxilində maraqlı tərəflər ilə qarşılıqlı əlaqə, məsləhətləşmələr və şikayətlərin idarə edilməsi proseslərini optimallaşdırmaq üçün Layihə çərçivəsində korporativ Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP/SEP) hazırlanacaq.

Qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Şirkət maraqlı tərəflərlə kommunikasiya və şikayətlərin idarə edilməsi mexanizmləri yaratmışdır. SEP/ MTQƏP-in həyata keçirilməsinin maraqlı tərəflərin dövri olaraq müəyyən edilməsi və qiymətləndirilməsi, həssas qruplarla qarşılıqlı əlaqənin gücləndirilməsi, maraqlı tərəflər ilə qarşılıqlı əlaqə fəaliyyətlərinin sənədləşdirilməsi və hesabatlılığının təkmilləşdirilməsi, gender amillərini nəzərə alan qarşılıqlı əlaqə təcrübələrinin tətbiqi, habelə maraqlı tərəflərin rəy və təkliflərinin əməliyyatların planlaşdırılması və ətraf mühit və sosial idarəetmə sistemlərinə davamlı inteqrasiyası sayəsində daha da gücləndirilməsi imkanları müəyyən edilmişdir.

Maraqlı tərəflərlə səmərəli qarşılıqlı əlaqəni təmin etmək və AYİB tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə davamlı uyğunluğu qorumaq məqsədi ilə SEP/MTQƏP-in icrasının davam etdirilməsi, dövri olaraq nəzərdən keçirilməsi və aktual vəziyyətdə saxlanılması tövsiyə olunur.

## 6. ƏTRAF MÜHİT VƏ SOSİAL FƏALİYYƏT PLANI (ƏMSFP/ESAP)

### 6.1. ESR 1 / ƏMST 1 – Ətraf mühit və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi

ESAP/ƏMSFP bütün əməliyyatları ehtiva etməklə yanaşı, ətraf mühit, sosial sahə, sağlamlıq və texniki təhlükəsizlik (ƏMST/ESHS), eləcə də məlumatların mühafizəsi və kibertəhlükəsizlik sahələrini əhatə edən və AYİB tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olan Kompleks İdarəetmə Sisteminin (KİS/IMS) hazırlanmasını və tətbiqini nəzərdə tutur. Əsas tədbirlərə korporativ siyasətlərin və idarəetmə mexanizmlərinin müəyyən edilməsi, qanunvericiliyin tələblərinə uyğunluğun idarə edilməsi, habelə ətraf mühit və sosial risklərin qiymətləndirilməsi prosedurlarının və operativ idarəetmə planlarının hazırlanması, eləcə də əmək münasibətlərinin idarə edilməsi, maraqlı tərəflərlə qarşılıqlı əlaqə, fövqəladə hallara hazırlıq, sənədlərə nəzarət, ətraf mühit və sosial məsələlər üzrə monitorinq və hesabatlılıq, fəaliyyət (icra) göstəricilərinin müəyyən edilməsi, rəhbərlik tərəfindən təhlil, o cümlədən müvafiq təşkilati potensialın yaradılması, təlimlərin keçirilməsi və resursların ayrılması ilə dəstəklənən operativ və rəqəmsal məlumatların ətraf mühit və sosial məsələlər üzrə qərar qəbuletmə proseslərinə inteqrasiyası daxildir.

## 6.2. ESR 2 / ƏMST 2 - Əmək münasibətləri və iş şəraiti

ESAP/ƏMSFP-nin müvafiq tədbirləri strukturlaşdırılmış işə giriş proqramlarının tətbiqi, yorğunluq risklərinin monitorinqi, təchizatçıların idarə edilməsi sistemləri, Təchizatçıların Davranış Kodeksi, podratçıların və təchizatçıların idarə edilməsi prosedurları, işçilərin şikayətlərinə baxılması mexanizmləri, psixososial risklərin idarə edilməsi, işçilərin rifahı proqramları və əməyin mühafizəsi və sağlamlıq üzrə sənədlərin aparılması vasitəsi ilə əmək münasibətlərinin idarə edilməsi sistemlərinin gücləndirilməsinə yönəlmişdir. ESAP/ƏMSFP həmçinin Şirkətin fəaliyyət göstərdiyi bütün ölkələrdə ardıcıl tətbiqi təmin etmək məqsədi ilə əmək münasibətlərinin idarə edilməsinə dair sənədləşdirmənin gücləndirilməsini və əmək münasibətlərinin idarə edilməsi üzrə tədbirlərin Şirkətin Ətraf Mühit və Sosial İdarəetmə Sisteminə inteqrasiyasını nəzərdə tutur.

## 6.3. ESR 3 /ƏMST 3 - Resurslardan rasional istifadə, çirklənmənin qarşısının alınması və nəzarət;

ESAP / ƏMSFP-nin tədbirləri enerji istehlakına, akkumulyatorların istismar dövrünün / tullantıların idarə edilməsinə, çirklənmənin qarşısının alınmasına və qanunvericiliyin tələblərinə uyğunluğa xüsusi diqqət yetirməklə, Şirkətin fəaliyyətinin miqyasına uyğun olaraq resurslardan rasional istifadənin və ətraf mühitin idarə edilməsi təcrübələrinin gücləndirilməsinə yönəlmişdir. Tədbirlər həmçinin bütün əməliyyatlar üzrə ətraf mühit göstəricilərinin davamlı yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə tullantıların və kimyəvi maddələrin idarə olunmasını, akkumulyatorların istismar dövrünün idarə edilməsini, çirklənmənin qarşısının alınması üzrə tədbirləri, ətraf mühit monitorinqinin və əməliyyat məlumatlarının inteqrasiyasının gücləndirilməsini, habelə resurslardan rasional istifadə üzrə fəaliyyət (icra) göstəricilərinin dövri olaraq nəzərdən keçirilməsini nəzərdə tutur.

## 6.4. ESR 4 / ƏMST 4 – Sağlamlıq və əməyin təhlükəsizliyi

ESAP/ƏMSFP-nin tədbirləri Şirkətin bütün əməliyyatları üzrə əməyin mühafizəsi və texniki təhlükəsizliyin, yol hərəkəti təhlükəsizliyinin, habelə ictimai sağlamlıq və texniki təhlükəsizliyin idarə edilməsinin gücləndirilməsinə yönəlmişdir. Əsas tədbirlərə Şirkətin Kompleks İdarəetmə Sisteminə (KİS/IMS) inteqrasiya edilmiş Əməyin Mühafizəsi və Texniki Təhlükəsizliyin İdarə Edilməsi Sisteminin tətbiqi, peşə risklərinin qiymətləndirilməsi, fövqəladə hallara hazırlıq, işçilərin sağlamlığının monitorinqi, psixososial risklərin idarə edilməsi, podratçıların təhlükəsizliyinin idarə edilməsi, akkumulyatorlarla təhlükəsiz iş prosedurları, insidentlərin (hadisələrin) araşdırılması və təhlükəli materiallarla təhlükəsiz davranış daxildir. Həmçinin, operativ təhlükəsizlik monitorinqinin təkmilləşdirilməsi, təhlükəsizliyin məlumat əsaslı idarə edilməsi, skuter istifadəçilərinin təhlükəsizliyinə nəzarət tədbirləri, ictimai sağlamlıq və texniki təhlükəsizlik risklərinin qiymətləndirilməsi, telematika və operativ məlumatların təhlükəsizlik üzrə qərar qəbuletmə prosesinə inteqrasiyası, operativ nəzarət tədbirlərinin dövri nəzərdən keçirilməsi və yoluxucu xəstəliklərin qarşısının alınması tədbirləri vasitəsi ilə mövcud yol hərəkəti və ictimai təhlükəsizlik tədbirlərinin mütəmadi surətdə nəzərdən keçirilməsi və yenilənməsi nəzərdə tutulur.

## 6.5. ESR 10 / ƏMST 10 – Məlumatların açıqlanması və maraqlı tərəflərlə qarşılıqlı əlaqə

ƏMSFP-nin tədbirləri maraqlı tərəflər ilə səmərəli qarşılıqlı əlaqəni, məlumatların açıqlanmasını və şikayətlərin idarə edilməsini təmin etmək üçün bütün əməliyyatlar üzrə Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planlarının (MTQƏP/SEP) tətbiqini və dövri olaraq nəzərdən keçirilməsini nəzərdə tutur. Əsas

tədbirlərə maraqlı tərəflərin müəyyən edilməsi və qiymətləndirilməsi, inklüziv və gender amillərini nəzərə alan qarşılıqlı əlaqə, daxili və xarici maraqlı tərəflər üçün şikayətlərin baxılması mexanizmlərinin tətbiqi, şikayətlərin monitorinqi və həlli, maraqlı tərəflər ilə qarşılıqlı əlaqə fəaliyyətlərinin sənədləşdirilməsi və hesabatlılığı, maraqlı tərəflərin rəy və təkliflərinin operativ qərar qəbuletmə prosesinə inteqrasiyası, habelə ətraf mühit və sosial məsələlərə dair müvafiq məlumatların dövri olaraq açıqlanması daxildir.

## 6.6. İcra və monitorinq

ESAP/ƏMSFP icrasının monitorinqi AYİB-in Layihəyə tətbiq olunan ətraf mühit və sosial məsələlər üzrə monitorinq tələbləri çərçivəsində aparılacaq. Şirkət tövsiyə olunan tədbirləri bütün əməliyyatlar üzrə mərhələli şəkildə həyata keçirəcək və onları öz Kompleks İdarəetmə Sistemi (KİS/IMS), idarəetmə prosesləri və operativ qərar qəbuletmə prosesinə inteqrasiya edəcəkdir.

Monitorinq ESAP/ƏMSFP-nin icrasının, ətraf mühit və sosial məsələlər üzrə fəaliyyət (icra) göstəricilərinin, əməyin mühafizəsi və texniki təhlükəsizliyin, maraqlı tərəflərlə qarşılıqlı əlaqənin, şikayətlərin idarə edilməsinin, ətraf mühit monitorinqinin, insidentlər (hadisələr) üzrə hesabatlılığın, qanunvericilik tələblərinə uyğunluğun və təshihedici tədbirlərin həyata keçirilməsinin dövri olaraq nəzərdən keçirilməsini əhatə edəcək. Şirkət ESAP/ƏMSFP üzrə öhdəliklərin yerinə yetirilməsini təsdiq edən müvafiq sənədlər hazırlayacaq və ESAP/ƏMSFP-nin gedişatı, habelə ətraf mühit və sosial məsələlər üzrə fəaliyyət (icra) göstəriciləri barədə AYİB-ə dövri olaraq hesabat təqdim edəcəkdir.

ESAP/ƏMSFP-nin məqsədi ətraf mühit və sosial məsələlər üzrə idarəetmənin, eləcə də operativ fəaliyyətin təkmilləşdirilməsini, habelə AYİB-in Ətraf Mühit və Sosial Tələblərinə, o cümlədən Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğunluğu davamlı surətdə təmin etməkdir.

# 7. ƏTRAF MÜHİT VƏ SOSİAL SAHƏDƏ MÜSBƏT FAYDALAR

Layihənin az emissiyalı müştərək şəhər mobilliyi xidmətlərini dəstəkləmək və şəhər mühitində dayanıqlı nəqliyyat alternativlərini genişləndirmək vasitəsilə ətraf mühit və sosial sahədə bir sıra müsbət faydalar təmin edəcəyi gözlənilir. Layihə səfərlərin başlanğıc və son mərhələlərində nəqliyyat bağlantısını təşviq edir, qısa məsafəli səfərlər üçün nəqliyyatın əlçatanlığını və çevikliyini artırır və daha dayanıqlı şəhər nəqliyyatı sistemlərinə keçidi dəstəkləyir.

Gözlənilən əsas faydalara aşağı karbonlu nəqliyyat alternativlərinin təşviqi, inteqrasiya olunmuş şəhər mobilliyinin dəstəklənməsi, məşğulluq imkanlarının yaradılması və istixana effekti yaradan qaz emissiyalarının azaldılmasına töhfə verilməsi daxildir. Qiymətləndirmə zamanı nəzərdən keçirilmiş məlumatlara əsasən, Şirkətin hesablamalarına görə platforma vasitəsi ilə həyata keçirilən səfərlərin müəyyən hissəsi əks halda daha yüksək emissiyalı nəqliyyat növləri ilə həyata keçiriləcək səfərləri əvəz edir və bununla da istixana effekti yaradan qaz emissiyalarının azaldılmasına töhfə verir.

Layihə həmçinin əməliyyat səmərəliliyini və xidmətlərin göstərilməsini təkmilləşdirən mobil tətbiqlərdən, telematikadan, nəqliyyat vasitələri parkının monitorinqindən və məlumatlara əsaslanan operativ idarəetmə sistemlərindən istifadə etməklə rəqəmsal texnologiyalara əsaslanan mobilliyi dəstəkləyir. Bundan əlavə, skuterlərə və əməliyyat komponentlərinə texniki xidmət göstərilməsi və onların istismar müddətinin uzadılması resurslardan rasional istifadənin artırılmasına və zaman keçdikcə material istehlakının azaldılmasına töhfə verir.

Layihə AYİB-in korporativ kapital metodologiyası çərçivəsində Paris Sazişinin təsirlərin azaldılması məqsədlərinə uyğun hesab edilmişdir və Layihənin həyata keçirildiyi ölkələrdə dayanıqlı şəhər mobilliyinə və daha az emissiyalı nəqliyyatın inkişafına müsbət töhfə verəcəyi gözlənilir.

# 8. MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ VƏ KOMMUNİKASİYA

Maraqlı tərəflərlə qarşılıqlı əlaqə Şirkətin müştərək mikromobillik xidmətlərinin ictimaiyyət yönümlü xarakteri və bu xidmətlərin skuter istifadəçiləri, piyadalar, yerli icmalar, bələdiyyə orqanları və digər yol hərəkəti iştirakçıları ilə qarşılıqlı əlaqəsi nəzərə alınmaqla, Layihənin mühüm tərkib hissəsidir.

Şirkət Layihə müddətində maraqlı tərəflərin müəyyən edilməsi, məlumatların açıqlanması, məsləhətləşmələrin aparılması və şikayətlərin idarə edilməsi proseslərinə istiqamət vermək məqsədi ilə ayrı-ayrı ərazilər üzrə bir neçə Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı (MTQƏP/SEP) hazırlamışdır. Müvafiq SEP/MTQƏP-lərdə əsas maraqlı tərəf qrupları müəyyən edilir, müvafiq qarşılıqlı əlaqə üsulları və kommunikasiya kanalları müəyyənləşdirilir, habelə Layihə fəaliyyətləri və maraqlı tərəflərin rəy və təklifləri əsasında planların dövri olaraq nəzərdən keçirilməsi və yenilənməsi nəzərdə tutulur.

Əsas maraqlı tərəf qruplarına əməkdaşlar, müqavilə əsasında çalışan işçilər, skuter istifadəçiləri, bələdiyyə orqanları, nəqliyyat sahəsində tənzimləyici orqanlar, yerli icmalar, piyadalar, həssas yol hərəkəti iştirakçıları, təchizatçılar, podratçılar və müvafiq dövlət qurumları daxildir.

Maraqlı tərəflər ilə qarşılıqlı əlaqə Şirkətin mobil tətbiqi, müştərilərə dəstək platformaları, elektron poçt, sosial media, bələdiyyə orqanları ilə birbaşa qarşılıqlı əlaqə, habelə işçilər və əməliyyat heyəti üçün daxili kommunikasiya sistemləri də daxil olmaqla, müxtəlif kommunikasiya kanalları vasitəsi ilə həyata keçirilir.

Şirkət həm daxili, həm də xarici maraqlı tərəflər üçün şikayətlərə baxılması üzrə mexanizmlər yaratmışdır. Maraqlı tərəflər öz qeyd və şərhlərini, eləcə də narahatlıq və ya şikayətlərini Şirkətin müştərilərə dəstək kanalları, mobil tətbiqi, elektron poçtu və digər mövcud kommunikasiya platformaları vasitəsi ilə təqdim edə bilərlər. Şikayətlər Şirkətin müəyyən edilmiş prosedurlarına uyğun olaraq idarə olunur və bu zaman məxfiliyin və şəxsi məlumatların qorunmasına lazımi diqqət yetirilir. Maraqlı tərəflərin rəy və təklifləri, habelə şikayətlər ilə bağlı təmayüllər operativ fəaliyyətin, eləcə də ətraf mühit və sosial məsələlərin idarə edilməsinin davamlı təkmilləşdirilməsi üçün dövri qaydada nəzərdən keçirilir.

Layihə təsdiq edildikdən sonra maraqlı tərəflər ilə qarşılıqlı əlaqə prosesini optimallaşdırmaq üçün korporativ səviyyədə SEP/MTQƏP hazırlanacaq. Bu plan maraqlı tərəflər ilə inklüziv qarşılıqlı əlaqəni təşviq edəcək və zərurət yarandıqda, həssas və kifayət qədər təmsil olunmayan qruplarla da qarşılıqlı əlaqəni nəzərdə tutacaqdır. Maraqlı tərəflərin rəy və təklifləri Şirkətin fəaliyyət göstərdiyi bütün ölkələrdə skuter istifadəçilərinin daim məlumatlı olmaları, eləcə də əməliyyat təhlükəsizliyinin, habelə ictimai sağlamlıq və texniki təhlükəsizlik tədbirlərinin davamlı surətdə təkmilləşdirilməsi üçün istifadə olunur.

**Layihə üzrə əlaqə məlumatları və şikayətlərin təqdim edilməsi**

Layihə haqqında əlavə məlumat almaq, şərh və ya problemləri bildirmək, yaxud şikayət təqdim etmək istəyən maraqlı tərəflər aşağıdakı əlaqə vasitələrindən istifadə edə bilərlər:

***Əlaqə məlumatları:*** feedback@jetshr.com

Müvafiq hallarda, şikayətlər Şirkətin müştərilərə dəstək kanalları və mobil tətbiqi vasitəsi ilə də təqdim oluna bilər. Bütün şikayətlər Şirkətin Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planına (MTQƏP) və müəyyən edilmiş şikayətlərin idarə edilməsi prosedurlarına uyğun olaraq idarə ediləcək.

## 9. NƏTİCƏ

"Sapar" Layihəsi üzrə Ətraf Mühit və Sosial Qiymətləndirmə (ƏMSQ/ESA) AYİB-in 2024-cü il Ətraf Mühit və Sosial Siyasətinə (ƏMSS/ESP), qüvvədə olan Ətraf Mühit və Sosial Tələblərə (ƏMST/ESR), eləcə də cari milli normativ-hüquqi tələblərə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə (GIIP) uyğun olaraq aparılmışdır.

Qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Layihənin ətraf mühit və sosial təsirləri ümumilikdə əməliyyat xarakterli, konkret ərazilərlə məhdudlaşan və idarə olunan təsirlərdir. Layihə irimiqyaslı sənaye istehsalını və ya iri stasionar sənaye infrastrukturunu nəzərdə tutmur və qiymətləndirmə zamanı mahiyyət etibarilə ciddi ekoloji və ya sosial təsirlər müəyyən edilməmişdir.

Qiymətləndirmə zamanı müəyyən edilmişdir ki, Şirkət ətraf mühit və sosial məsələlər üzrə idarəetmə, əmək münasibətləri və iş şəraiti, əməyin mühafizəsi və texniki təhlükəsizlik, ictimai sağlamlıq və texniki təhlükəsizlik, operativ təhlükəsizlik, akkumulyatorların idarə edilməsi, maraqlı tərəflərlə qarşılıqlı əlaqə və rəqəmsal əməliyyat sistemləri ilə bağlı bir sıra operativ nəzarət tədbirləri və idarəetmə mexanizmləri yaratmışdır. Həmçinin müəyyən edilmişdir ki, ətraf mühit və sosial məsələlər üzrə idarəetmənin, ətraf mühit üzrə fəaliyyət (icra) göstəricilərinin monitorinqinin, əməyin mühafizəsi, habelə ictimai sağlamlıq və texniki təhlükəsizliyin idarə edilməsinin, yol hərəkəti təhlükəsizliyinin, fövqəladə hallara hazırlığın, podratçıların idarə edilməsinin və korporativ Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planının (MTQƏP) tətbiqinin daha da gücləndirilməsi mümkündür.

Şirkətin ətraf mühit və sosial idarəetmə sistemlərinin və əməliyyat təcrübələrinin AYİB-in tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun olaraq davamlı şəkildə gücləndirilməsini təmin etmək məqsədi ilə Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ƏMSFP/ESAP) hazırlanmışdır.

ESAP/ƏMSFP-nin həyata keçirilməsi şərtilə, Layihənin AYİB-in qüvvədə olan Ətraf Mühit və Sosial Tələblərinə və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsinə uyğun şəkildə fəaliyyət göstərə biləcəyi hesab edilir. Layihə AYİB-in korporativ kapitalda iştirak metodologiyası çərçivəsində Paris Sazişinin təsirlərin azaldılması məqsədlərinə uyğun hesab edilmişdir. Həmçinin, Layihənin fəaliyyət göstərdiyi ölkələrdə az emissiyalı nəqliyyat alternativlərinin, rəqəmsal texnologiyalara əsaslanan mobillik həllərinin təmin edilməsi və səfərlərin başlanğıc və son mərhələlərində nəqliyyat bağlantısının yaxşılaşdırılması vasitəsi ilə dayanıqlı şəhər mobilliyinə müsbət töhfə verəcəyi gözlənilir.